AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №2, səh. 69-75 (2013)

Gəncə-Qazax Florasının Nadir Növləri Və Yeni Taksonlar

T.S.Babakişiyeva [1], S.C.İbadullayeva[2]

[1]*Azərbaycan Dövlət Aqrar Universiteti, Atatürk prospekti, 262, Gəncə AZ2000, Azərbaycan*
[2]*AMEA Botanika Institutu, Badamdar şossesi, 40, Bakı AZ1073, Azərbaycan;*
E-mail: sayyarajamshid@yahoo.com

Gəncə-Qazax florasında 28 fəsiləyə, 40 cinsə aid 50 növün itmə və ya azalma səbəbləri müəyyən edilmiş və bitkilərin təbii bərpası üçün tədbirlər göstərilmişdir. Ərazi florasının nadir bitkilərindən olan *Iris camillae, İris schelkownikowii* növlərinin yeni formalarına, *Punica granatum* növünün isə yeni variasiyasına (*Punica granatum var. parvilofa*) ərazidə ilk dəfə rast gəlinmişdir.

Açar sözlər: *Gəncə-Qazax ərazisi, nadir və endemik növlər, yeni areallar*

GİRİŞ

Gəncə-Qazax bölgəsi flora biomüxtəlifliyi baxımından çox zəngindir. Bu botaniki-coğrafi rayon öz relyef quruluşuna görə arandan-subalpadək nadir bitkiləri müxtəlif bitkilik tiplərində cəmləşdirmişdir (Гаджиев, 1990; Гаджиев и др., 1990). Bugünədək ərazidə nadir və yalnız bura üçün xarakterik növlər xüsusi olaraq tədqiq edilməmişdir. Burada qədim dövrlərdən qalmış reliktlər, Qafqaz və yalnız Azərbaycana məxsus endemik bitkilər çoxluq təşkil edir. Onların böyük bir qismi ərzaq, yem, dərman, texniki, ədviyyat, dekorativ və s. bitki kimi yerli əhali tərəfindən geniş istifadə edildiyinə baxmayaraq, indiyə qədər onların genofondunu əks etdirən növdaxili sistematika işlənilib hazırlanmamışdır (Şahmuradova və b., 2013). Bu növlərin *in situ* şəraitdə limit faktorları, onların dözümlülük riskinin artmasının səbəbləri öyrənilməmiş və onlar ekoloji cəhətdən qiymətləndirilməmişdir.

Bizim apardığımız son tədqiqatlar göstərir ki, hazırda Gəncə-Qazax florasının ali bitkilərinin ən azı 10-dan çox növü nadir olmaqla yanaşı, həm də təhlükə altındadır. Eyni mənzərəni biz Gəncə ətrafı fitocoğrafi rayonunun flora biomüxtəlifliyində də görürük. Son tədqiqatlara görə, Gəncə ətrafında ekoloji vəziyyət 2-3% pozulmamış qalmışdır (Səfərov, 2012). Bütün qeyd olunanları nəzərə alaraq, Gəncə-Qazax bölgəsində nadir və təhlükənin müəyyən həddində olan bitkilərin taksonomik tərkibinin müəyyən edilməsi qarşıya məqsəd qoyulmuşdur.

MATERİAL VƏ METODLAR

Tədqiqat aparılan ərazi Azərbaycan Respublikasının qərb zonasında yerləşən, sahəsi 12,482 min km^2 olan, Ağstafa, Qazax, Daşkəsən, Gədəbəy, Gəncə, Goranboy, Naftalan, Samux, Göygöl, Şəmkir, Tovuz inzibati-coğrafı rayonlarını əhatə edən Gəncə-Qazax botaniki-coğrafi rayonudur. Ərazi dəniz səviyyəsindən 100 m-dən 3767 m-ə qədər hündürlüyündədir (Çamus 3724 m, Hinaldoq isə 3367 m-dir.).

Təbii şəraitdə 2003-2013-cü illər ərzində müşahidələr aparılmış (Бейдеман, 1974), bir sıra geobotaniki tədqiqatlar (Работников, 1950) həyata keçirilmişdir. Bununla yanaşı, nadir və məhvolma təhlükəsi qarşısında qalan növlərin coğrafı öyrənilməsində Q.Valterin (1956), Braun-Blanquetin (1937), M.Q.Popovun (1963), M.Zaharın (1963) areal təsnifatından istifadə edilmişdir. Taksonların adlandırılması zamanı Azərbaycan florası 8 cildliyindən, Çerepanovun əlavə və dəyişikliklərindən istifadə edilmişdir (Флора Азерб., 1952-1961; Черепанов, 1995),

Ərazidə nadir və məhvolma təhlükəsi qarşısında qalan növləri müəyyənləşdirmək, onların ümumi siyahısını tərtib etmək üçün aşağıdakı tədqiqatlar aparılmışdır: Müxtəlif en dairəsindən asılı olmayaraq az yayılan növlər, müəyyən səbəbdən öz areallarını qısaldan və məhvolma təhlükəsi qarşısında qalan taksonlar seçilmişdir; Endemik, nadir növlərə üstünlük verilmişdir. Bütün endemik növlərin qorunması məsələsi qarşıda təxirəsalınmaz məqsəd kimi qoyulmuşdur. Burada növlərin endemikliyi yox, onların nadir və çox mürəkkəb statusa malik olması nəzərə alınmışdır; Siyahıya potensial təsərrüfat imkanlarına malik olan növlər daxil edilmiş, nəsli kəsilməkdə olan növlərin genofondunu saxlamaq üçün müəyyən əməli tədbirlər aparılmışdır; Nadir, məhvolma təhlükəsinə məruz qalan və azsaylı növlərə diqqətlə yanaşılmış, Kiçik Qafqazın şimal hissəsindən, Kür düzü, Kür-Araz ovalığı və Bozqır yaylası botaniki coğrafı rayonların ərazilərinin müxtəlif sahələrindən herbari materialları toplanılmış və Azərbaycan Dövlət Aqrar Universitetinin yeni yaradılmış fonduna təhvil verilmişdir.

NƏTICƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Nadir, təhlükə həddində olan və nəinki Azərbaycanda eləcə də yayılma mərkəzi yalnız Gəncə-Qazax ilə məhdudlaşan növlərin müasir vəziyyəti və azalma səbəbləri təyin edilmiş və hər bir növ barədə aşağıda məlumat verilmişdir.

Nərgizçiçəklilər - Amaryllidaceae C.St. Hil. fəsiləsinə aid Fişer ştrinbergiyası - ***Sternbergia fischeriana*** **(Herb.) M.Roem.** növü erkən çiçəkləyən, məhdud və arealı daralan bitkidir. Bozqır yaylasının Göytəpə, Budyax, Kəlağaylı sahələrində aşağı və orta dağ qurşağının quru yamaclarında tək-tək rast gəlinir. Gözəl görünüşlü dekorativ bitkidir, soğanaqcıqlarının və çiçəklərinin toplanması nadirləşməsinin əsas təsiredici faktorlarından biridir.

Həyətyanı sahələrdə, Azərbaycan Dövlət Aqrar Universitetinin dendroloji sahəsində və Şəmkir su elektrik stansiyasının sahəsində becərilir. Təbii bərpası üçün soğanaqları reintroduksiya edilmişdir. Az.Res. "Qırmızı kitabı"nın 2-ci nəşrinə daxil edilmişdir (2013, s. 228).

Sumaq - Anacardiaceae Lindl. fəsiləsinə aid Sarağan və ya Bəlgə**- *Cotinus coggygria* Scop.** dar areala malik olan qiymətli bitkidir. Yüksək keyfiyyətli taninlər, aşı maddəsi, dərman, bəzək bitkisi olmaqla, etil spirti, efir yağı və fuzetun adlı sarı rəngli maddənin mənbəyidir. Kol bitkisi kimi yerli əhali tərəfindən kütləvi şəkildə istifadə edilir.

Genofondunun saxlanması üçün bitkinin kütləvi surətdə kəsilməsi, çiçəklərinin toplanılmasının və istifadəsinin qarşısı alınmalıdır. Populyasiyası üzərində mütəmadi müşahidələr aparılır, becərilməsinin təşkili məqsədəuyğundur. Gözəl görünüşlüdür. Qoruyucu xətt kimi parkların və xiyabanların kənarlarında becərilməsi məqsədəuyğundur. Bu genofondun qorunması üçün ən əlverişli üsuldur.

Fəsilənin nadir növlərindən biri də Fıstıq- ***Pistacia mutica*** **Fisch. et C.A.Mey.** növüdür. Məhdud sahədə yayılan, az saylı növdür. Fərdlərin sayı azalan, arealları get-gedə daralan bitkidir. Bozqır yaylasının Bozdağ silsiləsində aşağı dağ qurşaqlarına kimi quru yamaclarda, dağətəyi və ovalıqlarda tək-tək rast gəlir. Əsas lokaliteti Göygöl rayonundadır.

Antropogen təsirlər bitkinin fərdlərinin sayının azalmasının əsas səbəblərindən biridir. Ağacların kəsilməsi əsas təsir edən faktordur. Bağ və parklarda az da olsa becərilir. Bunlarla yanaşı Turyançay Dövlət qoruğunda digər bitkilərlə birlikdə qorunur. Lakin bitkinin genofondunu saxlamaq üçün onun geniş sahələrdə becərilməsinin elmi təşkili, kəsilməsinin qəti qadağan edilməsi və fərdlər üzərində fenoloji müşahidələrin gücləndirilməsi vacibdir.

Fəsiləyə aid digər növ Sumaqdır – ***Rhus coriaria*** **L.** Dar areallı, qiymətli aşı və rəngləyici bitkidir. Geniş yayılan bitki olsa da tədqiq edilən ərazidə bir lokalitetə malikdir. Bitkinin kəsilməsi, meyvəsinin toplanması, fərdlərinin sayının azalmasına səbəb olur. Antropogen amillər və torpaq eroziyası bitkinin məhv olmasına əsas təsir edən amillərdən biridir.

Ərazidə bitkinin qorunması üçün xüsusi mühafizə tədbirləri işlənib hazırlanmamışdır. Bununla əlaqədar bitkinin toxumlarının toplanıb münasib sahələrdə becərildikdən sonra, reintroduksiyası təmin edilməlidir. Bitkinin kəsilməsinin qadağan edilməsi tədbirləri aparılmalıdır.

Kərəvüzkimilər –*Apiaceae* Lindl. fəsiləsinin Vitman öküzboğanı- ***Bupleurum wittmannii*** **Stev.** növü də Bozqır yaylasının nadir növlərindəndir. Azərbaycan florasında yalnız bu botaniki-coğrafı rayonda Molladi kəndinin yaxınlığında olan Qazan göl ətrafında rast gəlinən bu növ V.Tutayuqun herbari materiallarının kameral analizi nəticəsində təyin edilmişdir. Bilasuvar rayonu ərazisindən son vaxtlarda aşkar edilmişdir, qeyd edilən ərazi növün yeni yayılma sahəsidir. Respublikada az yayıldığından qorunması vacibdir. Herbari fondunun araşdırılmasından məlum olmuşdur ki, son 50-60 ildə heç bir korrektor tərəfindən toplanılmamışdır, ola bilsin ki, bu növ tədqiqat ərazisində tamamilə məhv olmuşdur. Bərpası üçün toxumları Bilasuvar ərazisindən toplanaraq Bozqır yaylasında introduksiya edilmişdir.

Ferula caspica **Bieb**. - Xəzər ilankölgəsi Kərəvüzkimilərin Azərbaycan florasında çox az yayılan bir növüdür, Bozqır yaylasının Xanabad kənd ətrafında, dağətəyi və ovalıqda, quru bozqırlarda, səhra yamaclarında, duzlu sahələrdə nadir halda rast gəlinir.

Otlaqlardan səmərəsiz istifadə edilməsi, müxtəlif köç yollarının salınması növ fərdlərinin sayının azalmasına səbəb olan problemlərdən biridir. Antropogen amillər və təbii fəlakət bitkinin məhv olmasının əsas təsiredici faktorudur. Mədəni halda becərilməsi haqqında məlumat yoxdur. Bitki Turyançay Dövlət qoruğunda qorunur və Azərbaycanın «Qırmızı kitabı»nın 1-ci və 2-ci nəşrlərinə daxil edilmişdir.

Bitkinin toxumlarının toplanıb münasib sahələrdə əkilməsi, bitki fərdləri üzərində fenoloji müşahidələrin gücləndirilməsi əsas mübarizə tədbirlərindən biridir.

Asteraceae Dumort. - Asterçiçəklilər fəsiləinə aid Hohenaker kuziniyası- ***Cousinia hohenackeri*** **Fisch. et C.A.Mey.** məhdud areala malik növdür. Azərbaycan florasında yalnız Bozqır yaylasında və Diabar botaniki-coğrafı rayonunda yayılması genofondunun qorunması üçün əsas göstəricidir.

1931-ci ildə T.Qeydeman tərəfindən Bozdağ silsiləsindən toplanılmışdır. Lakin bu son 80 ildən çox bir dövr ərzində bu bitki bir dəfə də olsun toplanmamışdır, ola bilsin ki, növ tamamilə məhv olmuşdur. Ərazilərin səmərəsiz otarılması, antropogen amillərin otlağa mənfi təsirinin nəticəsidir ki, növ tamamilə məhv olmuşdur. Ədəbiyyat mənbələrinə əsaslanaraq uyğun ərazilərdə bitki tərəfimizdən axtarılsa da tapılmamışdır.

Şərq kuziniyası- ***Cousinia orientalis*** **(Adams.) C.Koch.** fəsilənin nadir və məhdud areala malik növlərindəndir. 1928-ci il A.Kolakovski Kür düzünün Poylu və Salahlı kəndi arasından və M.Saxokiya tərəfindən 1929-cu ildə Bozqır yaylasının Acınohur bozqırlarından toplanılmışdır. Qeyd etmək lazımdır ki, bu növ son 85 ildən çox bir müddət ərzində bir dəfə də olsun yenidən toplanmamışdır. Növ ola bilsin ki, məhv edilmişdir. Biz yuxarıda qeyd edilən əraziyə bir neçə dəfə ekspedisiya təşkil etmiş, lakin bu bitkiyə rast gəlməmişik. Toxumlarının mübadilə yolu ilə əldə edilərək bərpası istiqamıtində tədqiqat işi aparılır.

Göyzəbankimilər - *Boraginaceae* Juss. fəsiləsinin Nazikçiçək buqlossa - ***Buglossoides tenuiflora*** **(L. fil.) Johnst.** (=*Lithospermum teniflorum* L.) növü nadir bitkidir. Qafqaz florasında yalnız Azərbaycanda yayılan bu növün öyrənilməsinin və genofondunun saxlanılmasının böyük əhəmiyyəti vardır. Bu növə aid herbari materialı AMEA Botanika İnstitutunun Mərkəzi herbariumunda yoxdur. Tipi Sankt-Peterburqda saxlanılır. Növ fərdlərinin sayı azaldığından ola bilsin ki, tamamilə məhv olmuşdur. Təbiətdə yayılma sahəsi müəyyən edilməmişdir, fərdlərini tapılması istiqamətində daima müşahidələr aparılır. Təbii fəlakət, torpaq eroziyası və otlaqlardan səmərəli istifadə edilməməsi əsas məhvedici faktorlarından biridir. Təbiətdə yayılması haqqında tam məlumat yoxdur.

Kələmkimilər - *Brassicaceae* Burnett. fəsiləsinin Jerar ərəbotu - ***Arabis gerardii (*****Bess.) Koch** növü arealı qısalan, nadir, bəzək və yem bitkisidir. Genetik cəhətcə çox maraqlı materialdır. Genofondunun saxlanılması üçün bu növün hərtərəfli öyrənilməsi məqsədəuyğundur. Bozqır yaylasında kolluqda, meşə talasında, xırda təpəciklərdə nadir hallarda rast olunur. Bozqır yaylasında yayılma sahələrinin səmərəsiz otarılması, təbii fəlakət fərdlərin sayının azalmasına təsir edir.

Fəsilənin nadir növlərindən biri də ***Neotorularia eldarica*** **(Grossh.) V.Avet.** (=*Torularia eldarica* Grosh.) – Eldar yeniməsməsidir. Arealı qısalan, nadir və endemik bitkidir. Azərbaycanda Bozqır yaylası və Kür düzündə kiçik biotoplarda rast gələn bitkinin fərdlərinin sayı get-gedə azalır. Ərazidən səmərəsiz istifadə edilməsi və təbii fəlakətlər nadirləşməsinin əsas təsiredici faktorudur. Bitki fərdləri üzərində fenoloji müşahidələrin gücləndirilməsi, lokalitələrinin yayıldığı sahələrnin otarılmasının azaldılması və toxumunun toplanıb münasib sahələrdə çoxaldılmasının elmi təşkili indiyədək hazırlanmamışdır. 2013-cü ildə bitkiyə aid 3-4 fərd tapılmışdır, toxum tədarükü gözlənilir.

Qərənfilçiçəklilər fəsiləsi – *Caryophyllaceae* Cuss. Azərbaycanda 86 cinsə aid 171 növlə təmsil olunur. Bunlardan 1 növü Divarkənarı qumsevən – ***Psammophiliella muralis*** **(L.) İkonn.** (=Gypsophila muralis L.) nadir bitkidir. Ərazidə ola bilsin ki, tamamilə məhv olmuşdur, buna görə də onun tədqiqi böyük əhəmiyyət kəsb edir. Azərbaycan florasında cinsin yeganə növü olduğundan genofondun saxlanılması üçün qorunması vacibdir. Mərkəzi Herbariumun təftişinə əsasən demək olar ki, 1929-cu ildə A.Kolakovski tərəfindən toplanılsa da, bu 80 il ərzində yenidən toplanılmamışdır. Gman edilir ki, antropogen amillər bitkinin məhv olmasına səbəb olmuşdur. Təbiətdə növün axtarılmasının davam etdirilməsi, müşahidələrin aparılması, arealı müəyyən etdikdən sonra yasaq şəklində qorunması və münasib sahələrdə çoxaldılması tövsiyə edilir.

Tərəkimilər fəsiləsi – *Chenopodiaceae* Vent. aid Ağ sirkən - ***Atriplex cana*** **C.A.Mey**. Azərbaycanda yalnız Bozqır silsiləsinin Böyrük-Enci yaylasında rast gəlinir və saksaul kimi yanacaq bitkisi olmaqla onun genofondunun saxlanılması üçün qorunması məqsədəuyğundur.

Ərazinin səmərəsiz otarılması, bitkinin gövdəsindən yanacaq kimi istifadə edilməsi fərdlərin sayının azalmasına səbəb olmuşdur. Təbii fəlakətlər o cümlədən, torpaq eroziyası, sahənin otarılması bitkiyə təsir edən əsas faktorlardan biridir.

Sərvkimilər fəsiləsinə *Cupressaceae* Rich. Ex Bartl. aid Foetid ardıcı - ***Juniperus foetidissima*** **Willd.** üçüncü dövrün etalon bitkilərindən biridir. Nadir və məhvolma təhlükəsi qarşısında qalan bitki kimi Qırmızı kitabın II nəşrinə daxil edilmişdir, məhdud areala malik olan bitki kimi genofondunun saxlanılmasının əhəmiyyəti böyükdür. Bozqır yaylasında Əldcan və Göyçay arasında tək-tək rast gəlir. Turyançay Dövlət qoruğunda mühafizə olunur. Toxumlarının quşlar, gəmiricilər tərəfindən məhv edilməsinin qarşısının alınması üçün mübarizə tədbirləri işlənib hazırlanmalıdır.

Paxlakimilər – *Fabaceae* Lindl. fəsiləsinin Andrec astrakantı - ***Astracantha andrejii*** **(Rzazade) Czer.** növü endemik, dar areallı olmaqla Qafqaz florasında yalnız Bozqır yaylası botaniki-coğrafı rayonunda yayıldığından bitkinin qorunması vacibdir. Herbari materiallarından aydın olur ki, Palantökən silsiləsindən Şelkovnikov və

Çomaxlı stansiyası ətrafından dəniz səviyyəsindən 200-300 m hündürlükdən F.Alekseyenko tərəfindən toplanılmışdır. Antropogen amillər, təbii fəlakətlər o cümlədən torpaq eroziyası növün azalmasının əsas təsiredici amilləridir. Qeyd edilən ərazinin yasaqlar tipində qorunması, təbii fəlakətlərə qarşı mübarizə tədbirlərinin işlənilib hazırlanması tövsiyə edilir.

Xırdaçiçək qılınclı – ***Securigera parviflora* (Desv.) Lassen** (= *Coronilla parviflora* Willd.) fəsilənin nadir, məhdud areala malik növüdür. Tədqiq edilən sahədə lokal biotipinə yalnız Bozqır yaylasında İvanovka kəndi ətrafında, kolluqda rast gəlinir. Təbiətdə bitkinin fərdləri üzərində nəzarətin gücləndirilməsi, münasib sahələrdə onun geniş introduksiyası təşkil olunmalıdır.

Güney gəvəni – ***Astragalus gjunaicus* Grossh**. Kiçik Qafqazın şimal hissəsinin Kəpəz dağının yuxarı dağ qurşağının quru daşlı yamaclarında yayılmışdır. Bitkinin fərdlərinin azalmasına səbəb təbii aşınma, torpaqların deqradasiyasıdır. Müharibə şəraitinə görə son dəfə 2000-ci ildə müşahidə edilmiş, lakin toplanılmamışdır.

Balaca əqrəbotu – ***Scorpiurus minimus* Losinsk.** az yayılan, nadir bitkidir. Bozqır yaylasının quru otlu yamaclarında rast gəlinir. Növ az sahədə yayıldığından antropogen amillərin təsirindən fərdlərin sayı get-gedə azalır. Təbiətdə bitki üzərində nəzarətin gücləndirilməsi, münasib sahələrdə çoxaldılmasının geniş tədqiq edilməsi əsas qorunma tədbirlərindən biridir.

Qlobulariakimilər – *Globularisceae* DC. fəsiləsinin Adi qlobulariya – ***Globularia vulgaris* L.** nadir və nəsli kəsilmək təhlükəsində olan, arealı daralan növlərdən biridir. Qafqaz florasında yalnız Azərbaycanın Göygöl rayonu ərazisində rast gəlindiyindən genofondunun saxlanılması üçün mühafizə edilməlidir.

Otlaqlardan səmərəli istifadə edilməməsi bitkinin sayının azalmasına səbəb olur. Bitki toxumla çoxalır.

İridaceae Juss. –Süsənkimilər fəsiləsinin Kamillə süsəni – ***İris camillae* Grossh.** nadir, Cənubi Zaqafqaziyanın dar areallı endemik növüdür. Bitki Bozqır yaylasının, Kür düzündə yerləşən Samux rayonunun Qaradaşlı və Qazangöl ətrafında quru çınqıllı yamaclarda yayılmış və oradan elm üçün təsvir edilmişdir. Bir-neçə variasiyası elmə məlumdur (var. *emaculata* Grossh., var. *maculata* Grossh.), onların formaları kulturadadır: *f.lutla, f.coerulea, f.pseudoiberica, f.sulpharea, f.variegata, f.commanis, f.pollida, f.bicolor, f.grossheimii, f.divacea, f.violacea* və *f.speciosissima.*

Bitkinin məhvolma səbəblərindən biri kökümsovunun çıxarılması, sahənin sistemsiz otarılması, çiçəyinin toplanmasıdır. Respublikanın bağ və xiyabanlarında, həyətyanı sahələrdə becərilir. AMEA Botanika İnstitutunun dendroloji sahəsində introduksiya olunmuşdur.

Bu növ Azərbaycanın «Qırmızı kitab»ına daxil edilmişdir (1989, 2013). Aparılan tədqiqat nəticəsində yuxarıda qeyd edilən 2 variasiya və 12 formadan 3-ü Bozqır yaylası botaniki-coğrafı rayonu üçün ilk dəfə olaraq yeni areal kimi bizim tərəfimizdən göstərilir: *İris camillae f.coerulea*, *İris camillae f.lutea* və *İris camillae f.sulphurea.*

Gürcü süsəni – ***İris iberica* Hoffm.** nadir, məhdud areala malik olan, fərdlərinin sayı azalan bitkidir. Yaxşı bəzək bitkisidir, Qafqaz endemikidir. Azərbaycan ərazisində Bozqır yaylası, Kür düzünün dağətəyi düzənliyinin daşlı-çınqıllı sahələrində rast gəlinir. Gürcüstanınn Tbilisi ətrafından elm üçün təsvir edilmişdir. Bitki yayıldığı Eldar oyuğu Dövlət qoruğunda qorunur. «Qırmızı kitab»a daxil edilmişdir.

Cırtdan (qısaboy) süsən – ***İris pumila* L.** nadir və məhdud areala malik, bəzək bitkisidir. Kür düzü, Bozqır yaylasında, düzənlikdə, otlu yamaclarda, kolluqda lokal biotiplərinə rast gəlinir. Bitkinin yayıldığı ərazinin səmərəsiz otarılması, kökümsovunun və çiçəklərinin toplanması qəti qadağan edilməlidir. Antropogen və təbii amillər fərdlərin məhv olmasına səbəb olan əsas faktordur.

Aleksey süsəni – ***İris alexeenkoi* Grossh.** Nadir, az yayılan Azərbaycanın endemik növüdür. Genofondunun saxlanılması üçün bitki mühafizə olunmalıdır. Qazax rayonunun Gül-güllü və Ağdaşdan təsvir edilmişdir. Torpağın eroziyası, otlaqlardan səmərəsiz istifadə, çiçəklərin və kökümsovların toplanması, kök boğazlarının gəmiricilər tərəfindən yeyilməsi bitkinin məhvolma səbəbləridir. Gəncə-Qazax ərazisində ziyanvericilərə, xüsusən gəmiricilərə qarşı müvafiq mübarizə aparılmasa bitki tamamilə sıradan çıxa bilər.

Şelkovnikov süsəni – ***İris schelkownikowii* (Fomin) Fomin** məhdud areala malik endemik bitkidir. Genofondun saxlanılması qorunması vacibdir. Azərbaycanda yalnız Bozqır yaylası Samux rayonu ərazisinin Göytəpə sahəsinin aşağı dağ qurşağının quru gilli və daşlı yamaclarında yayılmışdır. Nadirləşməsinin əsas faktoru antropogen amillərdir.

Tədqiqat ərazisindən ilk dəfə aşağıdakı 4 forma tapılmışdır: *İ.schelkownikowii f. pallida* Grossh., *f.coerulea* Grossh., *f.violascens* Grossh. və *f. bimaculata* Grossh.

Cilkimilər – *Cyperceae* Juss. fəsiləsinə aid Enliyarpaq tüklücə – ***Eriophorum latifolium* Hoppe**. növü Azərbaycan ərazisində yalnız Kiçik Qafqazın şimalında yayılmış nadir bitkisidir. Çox az yayılan yüksək dağ bataqlıq bitkisi olduğundan genofondun saxlanılması üçün qorunmalıdır.

Cığkimilər– *Juncaceae* Juss. fəsiləsinin Sahil cığı – ***Juncus littoralis*** **C.A.Mey**. növü məhvolma təhlükəsi qarşısında olan nadir bitkidir. Ümumi Azərbaycan ərazisində geniş yayılsa da Bozqır yaylası botaniki-coğrafı rayonunda çox az rast gəlinir. Qorunmasına ehtiyac vardır.

Zanbaqkimilər– Liliaceae Juss. fəsiləsinə aid Eyxler dağlaləsi – ***Tulipa eichleri*** arealı daralan Şərqi Zaqafqaziyanın endemik növlərindəndir. Bitkinin soğanaqcığının və çiçəyinin toplanması, yayıldığı sahənin otarılması məhv olmasına təsir edən əsas faktorlardandır. Azərbaycan Respublikasının «Qırmızı kitab»nın II nəşrinə daxil edilmişdir.

Biberşteyn dağlaləsi – ***Tulipa biebersteiniana*** **Schult. Et. Schult. fil**. nadir, növdür. Bozqır yaylasının Acınohur sahəsində quru otlu yamaclarda, kolluqlarda, otlaqlarda təsadüf olunur. «Qırmızı kitab»a daxil edilmişdir. Mədəni halda becərilməsi, sahəsinin genişləndirilməsi və bitkinin toplanması qəti qadağan edilməli, mübarizə tədbirləri hazırlanıb həyata keçirilməlidir. Bitkinin rast gəlindiyi ərazidə yasaqlar təşkil edilməlidir.

Dəvəayağıkimilər– *Limoniaceae* Ser. (= *Plumbaginaceae* Lindl.) fəsiləsinin Fomin fomin tıs-tısı – ***Acantholimon fominii*** **Kusn.** növü dar areala malik olan endemik bitkidir. Azərbaycanın endemik bitkisi olduğundan genofondunun saxlanılması üçün mühafizə olunmalıdır. Ellər oyuğunda Bozdağ silsiləsində dağ ətəyində, gilli və daşlı sahələrdə yayılması barədə məlumatlar olsa da son 90 ildən çox bir vaxt ərzində bir dəfə də olsun ki, yenidən toplanmamışdır. Ola bilsin ki, növ tamamilə məhv olmuşdur. Tədqiqat davam etdirilir.

Nazikquyruq tıs-tıs - ***Acantholimon lepturoides*** **(Caub.et Spach) Boiss.** Qafqazın endemik bitkisi olmaqla nadir növdür. Bunun üçün genofondunun saxlanılması vacibdir. Azərbaycan ərazisində Bozqır yaylası və Kiçik Qafqazın şimal sahəsinin quru gilli və daşlı yamaclarında yayılmışdır.

Nazikçiçək tıs-tıs - ***Acantholimon tenuiflorum*** **Boiss.** nadir və məhdud areallı endemik bitkidir. Çox az yayılan, az populyasiyaya malik endemik növ olduğundan genofondunun qorunması vacibdir. Təbii fəlakətlər, o cümlədən torpaq eroziyası, antropogen amillər bitkinin məhvolmasına gətirib çıxara bilər.

Günotukimilər – *Hemerocallidaceae* R. Br. fəsiləsinin Kürən günotu – ***Hemerocallis fulva*** **L.** arealı qısalan, nadir növdür. Bozqır yaylasının Dəhndağ sahəsində rast gəlinir. Sahənin səmərəsiz otarılması növün məhv olmasına təsir edən faktorlardan biridir. Bitkinin soğanaqcıqlarının toplanması, heyvanların bu sahədə otarılması qəti qadağan edilməlidir.

Əməkökməcikimilər – *Malvaceae* Juss. fəsiləsinin Meşə əməköməci, Balba – ***Malva sylvestris*** **L.** Bozqır yaylasında az-az rast gəlinir. Otlaqların səthi yaxşılaşdırılması tədbirləri, antropogen amillər fərdlərin sayının azalmasına səbəb olur. Genofondunun qorunması üçün ADAU-nun dendraloji sahəsində və Gəncə şəhəri Yaşıllaşdırma idarəsinin təcrübə sahəsində A.İsgəndərova tərəfindən becərilərək genofondu qorunur.

Kiçicik əməköməci – ***Malva parviflora*** **L.** məhvolma təhlükəsi qarşısında qalan nadir bitkidir. Dərman, vitaminli, qanyaradıcı, bəzək və qiymətli bitki olduğundan genofondunun saxlanılması üçün növ mühafizəsi edilməlidir. Yaşıllaşdırma idarəsinin dendraloji sahələrində A.İsgəndərova tərəfindən becərilmişdir.

Səhləbçiçəklilər – *Orchidaceae* Juss. fəsiləsinin Qəşəng qayışçiçək – ***Himatoglossum formosum*** **(Stev.) C.Koch** növü tamamilə məhv olmaq üzrədir. Yaraşıqlı bəzək və dərman bitkisidir. Şərqi Zaqafqaziyanın endemik növü olduğundan genofondunun saxlanılması vacibdir. Təbii fəlakət və otarılma lokalitetlərinin sayının azalmasına səbəb olur. AMEA Mərkəzi Nəbatət bağında becərilir. «Qırmızı kitab»lara daxil edilmişdir.

Şamkimilər– *Pinaceae* Lindl. fəsiləsinə aid Eldar şamı – ***Pinus eldarica*** **Medw.** nadir, çox az yayılan Azərbaycanın endemik bitkisidir. Ellər oyuğunda 400-600 m hündürlükdə, əhəngli, duzlu torpaqlarda yayılmışdır. Gəncə şəhərində yaşıllaşdırmada istifadə edildiyi üçün genofondu qorunur.

Qırtıckimilər – *Poaceae* Barnhart fəsiləsinə aid Qafqaz şiyavı – ***Stipa caucasica*** **Schmalh**. növü ərazinin otaq sahələrində lokallaşır, səmərəsiz istifadə edilməsinə görə sayı durmadan azalmışdır. Bitkinin qılcıqlarının toplanması nadirləşməsinin əsas təsiredici amillərindən biridir.

Çəltikvarı leersiya – ***Leersia oryzoides*** **(L.) Sw.** Az yayılan, arealı qısalan bitkidir. Azərbaycan florasında yalnız Kiçik Qafqazın şimalında rast gəlindiyindən genofondunun qorunması vacibdir. Göygöl rayonu ərazisində, aranda, rütubətli yerlərdə, çay, göl ətrafında, alaqlı yerlərdə rast gəlir. Bitkinin lokaliteti olan ərazi yasaq şəklində qorunmalı, fərdlər üzərində nəzarət gücləndirilməli, toxumu münasib sahələrdə əkilməlidir.

Nar – *Punicaceae* Horon. fəsiləsinin yegə növü olan Nar – ***Punica granatum*** **L.** relikt bitki olmaqla, ərzaq, dərman, rəngləyici, aşılayıcı, bəzək və s. kimi geniş istifadə edilir. Təbii bitmə sahələri antropogen təsirlərdən azalmağa başlamışdır. Bozqır yaylasının Acınohur qış otlaq sahəsinin Şəki yaylası nahiyəsindən bu növün yeni areal olaraq variasiyası *Punica granatum* var. *parvilofa* məlum edilmişdir.

Pirolakimilər – *Pyrolaceae* Dumort. fəsiləsinin ***Pyrola media* Sw.** növü çox nadir, az yayılan bitkidir. Azərbaycan ərazisində yalnız Kiçik Qafqazın şimal hissəsinin Göy-göl ətrafından bir dəfə 1945-ci ildə Ş.Əfəndiyeva tərəfindən toplanılmışdır. Herbari materialına əsasən bu növün Göygöl ətrafında olması aydınlaşır, lakin 2002-ci ildən göl ətrafına xüsusi buraxılış verilmədiyi üçün, yeni məlumat əldə edə bilməmişik.

Qaymaqçiçəkkimilər – *Ranunculaceae* Juss. fəsiləsinin Aleksey qaymaqçiçəyi – ***Ranunculus* illyricus L.** (=*Ranunculus alexeenkoi* Grossh.) növü nadir, Azərbaycanın endemik bitkisidir. Azərbaycan ərazisində yalnız Qobustan və Bozqır yaylasında rast gəlinir.

Bitki son 50-60 ildə yenidən toplanmamışdır. Antropogen amillər və ya təbii faktorlar nəticəsində fərdlərin sayı azalmış, arealı get-gedə daralmış və nəticədə ola bilsin ki, məhv olmuşdur.

Gülçiçəkkimilər – *Rosaceae* Cuss. fəsiləsinə aid Qırmızı tubulqa – ***Pyracantha coccinea* M. Roem.** növü yaxşı bəzək, quşlar üçün yem, torpaq eroziyasına qarşı istifadə edilən əvəzsiz material olduğundan genofondunun mühafizəsi vacibdir. Bitkinin kökündən çıxarılması fərdlərin sayının azalmasına səbəb olur. Turyançay dövlət qoruğunda nüsxələri qorunur.

Tüklüçiçək yemişan – ***Crataegus eriantha* Pocar**. Azərbaycanın endemik bitkisidir. Ərazidə növəmələgəlmə prosesinin yaranmasında, növmüxtəlifliklərinin öyrənilməsində bu taksonun xüsusi rolu olduğundan genofondunun qorunması vacibdir. Bitkinin kəsilməsi və antropogen amillər fərdlərin sayının azalmasına səbəb olur.

Qaya dovşanalması – ***Cotoneaster saxatilis* Pocark.** Azərbaycanın və ümumilikdə Zaqafqaziyanın nadir, məhdud areala malik endemik bitkisidir. Antropogen amillər azalmasının əsas təsiredici faktorudur. Respublikanın Bozqır yaylasının yalnız qərb nahiyəsində bir-neçə fərdinə rast gəlinir. AMEA Mərkəzi Nəbatət bağında, park və xiyabanlarda becərilərək mühafizə olunur. Təbii reintroduksiyasına böyük ehtiyac vardır.

Boyaqotukimilər – *Rubiaceae* Juss. fəsiləsinə aid olan Eldar dilqanadanı- ***Galium eldaricum* Grossh.** arealı get-gedə qısalan, nadir bitki növüdür. Tərkibi rəngləyici maddə ilə zəngindir. Azərbaycan üçün endemik növdür. Yalnız Bozqır yaylasının daşlı-çınqıllı yamaclarında yayılmışdır. Yayıldığı sahənin sistemsiz otarılması fərdlərin sayının azalmasına səbəb olur. Samux rayonu ərazisinin Ellər oyuğu Dövlət qoruğunda qorunur.

Keçiqulağıkimilər– *Scrophulariaceae* Cuss. fəsiləsinin Ardıc bulaqotu – ***Veronica arceuthobia* Woronow** Azərbaycan florasının endemik bitkisidir. Bozqır yaylasının otlu yamaclarında, kolluqlarda, ardıc kolları arasında tək-tək rast gəlinir. Fərdlər üzərində müşahidələrin aparılması, toxumunun toplanıb münasib sahələrdə əkilməsi genofondun qorunması üçün əsas şərtdir.

Xırdaçiçək leptohabdos – ***Leptorhabdos parviflora* (Benth.) Benth.** nadir bitkidir. Azərbaycan florasında nadir və az rast gəlinəndir. Genofondunun qorunması üçün bitkinin mühafizəsi vacibdir. Təbiətdə az rast gəlindiyindən son 20-30 il ərzində bu bitki yenidən toplanmamışdır. Bitki ola bilsin ki, tamamilə məhv olmuşdur.

Pişikotukimilər – *Valeriaceae* Botsch. fəsiləsinin Lipski valerianotu – ***Valerianella lipskyi* Lincz.** məhvolma qarşısında qalan nadir növü Qafqazda yalnız yalnız Bozqır yaylası botaniki-coğrafi rayonunun qumsal sahələrində yayılmışdır. Aşqabad ətrafından elm üçün təsvir edilmişdir. Bitki fərdlərinin üzərində nəzarətin gücləndirilməsi, geniş sahələrdə becərilməsi genofondunun saxlanılması üçün vacib şərtlərdəndir.

Üzümkimilər – *Vitaceae* Cuss. fəsiləsinin Meşə üzümü - ***Vitis sylvestris* C.C.Gmel.** növü arealı qısalmaqda olan nadir bitkidir. İstiliyə və soyuğa davamlıolduğu üçün ilkin sortların və seleksiya əhəmiyyətli yeni hibrid sortların alınmasında, mədəni üzüm sortlarının məhsuldarlığının artırılmasında istifadə edilməsi üçün genofondun qorunmasının əhəmiyyəti böyükdür.

Azərbaycanın I və II nəşr «Qırmızı kitab»``ına (1989, 2013) daxil edilmişdir.

Yanacaq üçün bitkinin kəsilməsi, çay kənarı meşələrdən istifadə edilməsi və ya onun çiçəklərindən üzümün məhsuldarlığının artırılmasında istifadəsi qəti qadağan edilməlidir.

Göründüyü kimi Gəncə-Qazax ərazisindən 28 fəsiləyə aid 40 cins və 50 növün nadirləşməsi və ya itməsi müəyyənləşdirilmişdir. Ərazidə aparılan ekspedisiyalar zamanı və floranın təftişindən toplanılan herbari nümunələri içərisindən İris Juss. Cinsinə aid yeni formalar aşkar edilmişdir: *İris camillae (*İ.camillae f.coerulea, İ.camillae f.lutea və İ.camillae f.sulphurea*), İris schelkownikowii (*İ.schelkownikowii f. pallida Grossh., İ.schelkownikowii f. coerulea Grossh., İ.schelkownikowii f. violascens Grossh. və İ.schelkownikowii f. bimaculata Grossh.) yeni formalarına rast gəlinmişdir.

Punica granatum növünün ilk dəfə olaraq yeni variasiyasının *(Punica granatum* var.parvilofa) arealı tapılmışdır.

ƏDƏBIYYAT

Azərbaycan SSR-in Qırmızı kitabı (1989) I nəşr, Bakı.

Azərbaycan Respublikasının Qırmızı kitabı (2013) II nəşr. Bakı, 673 s.

Səfərov C.Q. (2012) Texnogen tullantılar şəraitində bitən bəzi iynəyarpaqlı növlərin morfo-anatomik analizi və tolerantlıq xüsusiyyətlərinin artırıilması. Biol. elm. üzrə fəls. dokt. dis. avto-tı. Bakı, 22s.

Şahmuradova M.C., İbadullayeva S.C. (2013) Göygöl rayonunun faydalı bitkilərinin sistematik-ekoloji təhlili. AMEA Gəncə bölməsi Xəbərlər məcmuəsi, **№53:** 9-19.

Бейдеман И.Н. (1974) Методика изучения филогении растений в растительных сообществах. Новосибирск: Наука СО, 155 с.

Гаджиев В.Д. (1990) Высокогорная растительность Малого Кавказа. Баку: Элм, 211 с.

Гаджиев В.Д., Алиев Д.А., Кулиев В.Ш., Вагабов З.В. (1990) Высокогорная растительности Малого Кавказа (в пределах Азербайджана). Баку: Элм, с. 10-22.

Попов М.Г. (1963) Основы флорогенетики. М., 153 с.

Работников Т.А. (1950) Жизненный цикл многолетняя травянистых растении в луговых уснозах. В кн.: Геоботаника, М.:Л.: с. 7-204.

Флора Азербайджана (1952-1961) В 8-х т. **Т. 2-8,** Баку: Изд-во АН Азерб. ССР.

Черепанов С.К. (1995) Сосудистые растения России и сопредельных государств (в пределах бывшего СССР). СпБ: Мир и семья-95, 990 с.

Braun-Blanquet C. (1937) Sur L'origine des elements de la flora Mediterranean. Stat. inst. Geobot. Medit. alpine., Montpellier, **56:** 8-13.

Walter H. (1956) Das problem der Tentralanatolischen Steppa. Die Naturwissenschoften, **43:** 97-102.

Zahary M. (1963) On the geobotanical structure it Iran. Bull. Res. Council of Israel. Sect. D. Bot., **11D. Cupp.:** 1-113.

Редкие Виды и Новые Таксоны Гянджа-Газахской Флоры

Т.С.Бабакишиева[1], С.Дж.Ибадуллаева [2]

[1] Азербайджанский государственный аграрный университет
[2]Институт ботаники НАНА

Выявлена опасность исчезновения 51 вида, относящихся к 41 роду и 29 семействам Гянджа-Газахской флоры и подготовлен план естественного возобновления этих видов. Впервые обнаружены новые формы редких видов *Iris camillae* (*I.* camillae f. coerulea, *I.camillae f.lutea* и *I. camillae f. sulphurea*), *I. schelkownikowii* (*I.schelkownikowii f. pallida* Grossh., *I.schelkownikowii f. coerulea Grossh.*, *I.schelkownikowii f. violascens* Grossh. и *I.schelkownikowii f. bimaculata Grossh.*), а также вариация *Punica granatum* (Punica granatum var.parvilofa).

Ключевые слова: *Гянджа-Газахская территория, редкие и эндемичные виды, новые ареалы*

Rare Species And New Tacsons Of The Flora of Ganja-Gazakh Region

T.S.Babakishiyeva[1], S.J.Ibadullayeva[2]

[1] Azerbaijan State Agrarian University
[2]Institute of Botany, ANAS

Threat of disappearance of 51 species belonging to 41 genera and 29 families of the flora of Ganja-Gazakh region has been ascertained and a plan of natural renovation of these species has been developed. New forms of rare species as: *Iris camillae* (*I.camillae f.coerulea, I.camillae f.lutea və I.camillae f.sulphurea*), *I. schelkownikowii* (*I.*schelkownikowii f. *pallida* Grossh., *I.schelkownikowii f. coerulea* Grossh., *I.schelkownikowii f. violascens* Grossh. and *I.schelkownikowii f. bimaculata* Grossh.) as well as variation of *Punica granatum* (*Punica granatum* var. *parvilofa*) have been found out for the first time.

Key words: *Ganja-Gazakh area, rare and endemic species, new areals*